**_Milli Məclisdə Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyətinə dair hesabatında əvvəlki illərdə olduğu kimi, ötən ildə də Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizdə sosial-iqtisadi inkişaf dinamikasının davam etdiyi vurğulanıb. Bildirilib ki, bu uğuru rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılması, dayanıqlı iqtisadi artımın sürətləndirilməsi, inkişafdan hər bir vətəndaşın bəhrələnməsi, işğaldan azad olunan ərazilərə əhalinin qayıdışının reallaşdırılması məqsədilə Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında 2021-ci il 2 fevral tarixli sərəncamının oynadığı önəmli rol şərtləndirib._**

# Uğur formulu: düzgün strategiya, ardıcıl islahatlar




Hesabat ilində makroiqtisadi tarazlığın qorunmasını hökumət əsas prioritet istiqamət kimi diqqət mərkəzində saxlayıb. Pandemiyanın yeni dalğasına baxmayaraq, çevik tədbirlərin görülməsi, peyvəndlənmə prosesinə xüsusi önəm verilməsi və sosial təcrid məhdudiyyətlərinin tədricən yumşaldılması nəticəsində iqtisadi fəallıq bərpa edilib. Nəticədə müsbət göstəricilərə nail olunub. Belə ki, hesabat dövründə ölkədə ümumi daxili məhsul (ÜDM) 5,6 faiz, sənaye istehsalı 5,2 faiz artıb. O cümlədən, artım tempi qeyri-neft sektoru üzrə 7,2 faiz, qeyri-neft sənayesi üzrə 18,9 faiz, kənd təsərrüfatı istehsalında 3,4 faiz təşkil edib.

Həyata keçirilən tədbirlər nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrində böyük əhəmiyyət daşıyan uğurlar qazanılıb. Məsələn, xarici ticarət dövriyyəsi təxminən 35,6 milyard ABŞ dollarına çatıb, müsbət ticarət saldosu 12,1 milyard ABŞ dollarını ötüb, 2020-ci illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 46,9 faiz, real ifadədə 5 faiz artıb. İxracın real artımı 17 faiz olub, idxal isə 10 faiz azalıb. Qeyri-neft ixracı 2,7 milyard ABŞ dolları təşkil etməklə real ifadədə 38,4 faiz yüksəlib.

Hesabat ilində vergi və gömrük daxilolmaları üzrə yığımlar proqnozdan 1,7 milyard manatdan çox olub ki, bu vəsait də cari ilin dövlət büdcəsinin sosialyönümlü xərclərinin artımına yönəldilib.

**(ardı 4-cü səhifədə)**

# Uğur formulu: düzgün strategiya, ardıcıl islahatlar

**(əvvəli 1-ci səhifədə)**

İqtisadiyyatın bütün sahələrində dinamik inkişaf strateji valyuta ehtiyatlarının artımını şərtləndirib. Belə ki, strateji valyuta ehtiyatları 2,5 milyard ABŞ dollarına yaxın artaraq 53 milyard ABŞ dollarını ötüb və xarici birbaşa dövlət borcunu 7 dəfədən çox (7,4) üstələyib.

Nazirlər Kabinetinin müvafiq hesabatında 2021-ci ilin sonuna xarici birbaşa dövlət borcunun məbləğinin 7,4 milyard ABŞ dollar təşkil etdiyi bildirilib. Bu, 2020-ci ilin sonu ilə müqayisədə 707 milyon ABŞ dolları və ya 8,7 faiz azalıb. Birbaşa xarici dövlət borcu ÜDM-in 13,5 faizini təşkil edib.





Hesabatda ötən il üçün dövlət büdcəsinin gəlirlərinin 25,4 milyard manat proqnoza qarşı 26,4 milyard manat qeydə alındığı və 3,8 faiz çox olduğu vurğulanıb. Bu uğura isə hesabat dövründə dövlət maliyyəsinin idarə olunmasının təkmilləşdirilməsi, dövlət borcunun idarə olunması, həmçinin şəffaflığın və hesabatlılığın artırılması, ictimaiyyətin, habelə və vətəndaş cəmiyyəti institutlarının büdcə proseslərində iştirakının genişləndirilməsi istiqamətlərində atılan mühüm addımlar sayəsində nail olunub.

## Sosial sahə prioritet istiqamətdir

Son 18 ildə aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində vətəndaşların rifah halı yüksəlib, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sistemi təkmilləşdirilib, insan kapitalının və sosial infrastrukturun inkişafına nail olunub, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi gücləndirilib.

Reallaşdırılan siyasət, atılan addımlar bütün sosial problemlərin həllini tapacağına, hər bir Azərbaycan vətəndaşının həyatında müsbət dəyişikliklərə səbəb olacağına əminlik yaradıb.

Bu gün sosial sahə üzrə davam etdirilən tədbirlər bir tərəfdən Azərbaycan dövlətinin gücünü, digər tərəfdən isə Prezident İlham Əliyevin gerçəkləşdirdiyi siyasətin səmərəliliyini, həyata keçirilən islahatların yüksək nəticələr verdiyini göstərir.

Hesabat ilində əhalinin, xüsusilə də aztəminatlı və sosial cəhətdən həssas kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ödənilən sosial ödənişlərin, o cümlədən əmək pensiyalarının, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilib. Prezident İlham Əliyevin tapşırığı əsasında sosial paket çərçivəsində 2022-ci ilin əvvəlindən isə ölkədə əməkhaqlarında növbəti artımlar reallaşdırılıb. Minimum aylıq əməkhaqqının 250 manatdan 300 manata çatdırılması ilə əlaqədar 800 min işçinin, o cümlədən maaşları Vahid Tarif Cədvəli üzrə müəyyən olunanların əmək haqqında orta hesabla 20 faiz artım edilib.

Bu ilin dövlət büdcəsindən minimum əməkhaqqı artımı üçün ayrılan əlavə illik vəsait 460 milyon manat nəzərdə tutulur. Ümumilikdə 2022-ci il üzrə əməkhaqqı, pensiya və digər sosial ödənişlərin artımı ilə bağlı sosial paket 3,4 milyon şəxsi əhatə edir. Bu artımlar üçün ayrılan illik əlavə vəsait isə 2,1 milyard manat həddindədir.

Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə, şəhid ailələrinə, həmçinin sosial cəhətdən həssas təbəqəyə daxil digər ailələrə ötən il 3 mindən artıq mənzil təqdim edilib. Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi üçün 2021-ci ilin dövlət büdcəsindən 354 milyon manat vəsait ayrılıb. Həmçinin İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka kreditlərinin həcmi hesabat dövründə 2 milyard manata yaxın olub və 37 minə yaxın ailənin mənzil şəraitinin yaxşılaşdırılması təmin edilib. Bunlarla bərabər, Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə, xəsarət alan və əlil olan hərbi qulluqçulara bütövlükdə təqribən 55 milyon manatdan çox sığorta ödənişləri verilib.

## Qarabağ və Şərqi Zəngəzurun bərpası diqqətdə saxlanılır

Hesabat ili ərzində Azərbaycan Prezidentinin sərəncamları ilə regionların sosial-iqtisadi inkişafı üçün dövlət büdcəsinin investisiya xərclərindən 212 milyon manat, Prezidentin ehtiyat fondundan isə 122 milyon manat vəsait ayrılıb.

Dövlətimizin başçısının 2021-ci il 7 iyul tarixli fərmanına əsasən iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib. Respublikamızda iqtisadi rayonların sayı 14-ə çatdırılıb, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb.

Prezident işğaldan azad edilən şəhər və kəndlərimizdə mütəmadi səfərlərdə olur, dağıdılmış ərazilərdə bərpa-yenidənqurma işlərinə şəxsən nəzarət edir.

İşğalçının dağıtdığı yaşayış sahələrinin bərpası və yenidən qurulması ilə bağlı 2021-ci ilin dövlət büdcəsindən ayrılan 2,2 milyard manat vəsait demək olar ki, tam istifadə olunub. Cari ilin dövlət büdcəsində də bu məqsədlər üçün eyni həcmdə (2,2 milyard manat) vəsait nəzərdə tutulub.

Ötən il istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı, Zəfər yolu, hazırda inşası aparılan Zəngilan və Laçın beynəlxalq hava limanları və digər mühüm avtomobil, dəmir yol və sosial infrastruktur layihələri bölgənin inkişafına əhəmiyyətli təkan verir.

İşğaldan azad olunan ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi əməliyyatları nəticəsində ötən il ərzində 20 min hektardan çox ərazi təmizlənib. Minalanma əməliyyatının sürətinin artırılması məqsədilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi lazımi maddi-texniki resurslarla təmin olunub.

Azərbaycan Prezidentinin müvafiq fərmanları ilə Ağdam Sənaye Parkı və Şərqi Zəngəzur iqtisadi rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Bütövlükdə, hesabat ilində sənaye zonalarında (parklar və məhəllələr) 2,4 milyard manat həcmində məhsul buraxılıb ki, bunun da 959 milyon manatlıq hissəsi ixrac edilib.

Yeri gəlmişkən, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı respublikamızın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. düşməndən təmizlənən ərazilərimizə investor marağını da artırır. Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Nazirlər Kabinetinin hesabatında bildirilir ki, Azərbaycan Prezidentinin müvafiq tapşırığına uyğun olaraq azad edilən torpaqların təxminən 100 min hektarında əkin işlərinin aparılması ərzaq təhlükəsizliyini, həm də kənd təsərrüfatı emalı üzrə fəaliyyət sahələrinin yaradılması bu sektorda artımı dəstəkləyəcəkdir.

Təbii olaraq ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi nəticəsində vaxtilə itirilmiş su ehtiyatlarımıza yenidən sahib çıxmağımız su təminatı, kənd təsərrüfatı və alternativ enerji sahəsində imkanlarımızı da artırır.

## Koronavirus pandemiyasına qarşı mübarizə davam etdirilir

Dünyanı ciddi təşvişə salan, minlərlə insanın ölümünə səbəb olan koronavirus pandemiyasına qarşı mübarizə ilk vaxtlardan Azərbaycan hökumətinin fəaliyyətində mühüm əhəmiyyət daşıyıb. Prezident İlham Əliyevin tapşırığı əsasında Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargah koronavirusun yayılmasının qarşısının alınması istiqamətində gərgin iş rejimində səmərəli tədbirlər həyata keçirirb. Respublikada epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanılıb, virusa yoluxma hallarının qarşısının alınması, zəruri profilaktik tədbirlərin gerçəkləşdirilməsi ilə əlaqədar vacib addımlar atılıb, əhaliyə lazımi məlumat və tövsiyələr verilib, vətəndaşların rifah halının pisləşməməsi istiqamətində əməli işlər görülüb.

Bütün bu işlər ötən il ərzində də uğurla davam etdirilib. Belə ki, hesabat dövründə koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri üçün faktiki olaraq 800 milyon manat istifadə olunub. Habelə əhalinin vaksinasiyası üçün ümumilikdə 433 milyon manat vəsait ayrılıb. Ölkəyə 18 milyon doz vaksin preparatı gətirilib və ondan 13,3 milyon doza istifadə olunub.

Hesabatda, həmçinin həkimlərin tövsiyələrinə, statistik göstəricilərə və vaksinasiya prosesinin gedişatına əsaslanaraq, Nazirlər Kabineti tərəfindən xüsusi karantin rejimi çərçivəsində martın 6-dan əksər məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı qərar qəbul edildiyi də xatırladılıb.

## Qarşıya qoyulan əsas vəzifələr

Baş nazirin hesabat məruzəsində 2022-ci ildə Hökumətin qarşısında duran əsas vəzifələr və nəzərdə tutulan tədbirlər barədə də ətraflı bəhs edilib. Belə ki, cari il ərzində ölkənin dayanıqlı inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, onun rəqabət qabiliyyətinin artırılması, makroiqtisadi və maliyyə sabitliyinin qorunması, fiskal dayanıqlığın təmin edilməsi, xərclərin optimallaşdırılması və qənaət rejimində istifadəsi, biznes mühitinin yaxşılaşdırılması, struktur dəyişikliklərinin sürətləndirilməsi prioritet istiqamətlər kimi qəbul olunub. Eyni zamanda, antiinhisar siyasətinin, həmçinin daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi, qlobal ərzaq bazarlarında bahalaşmanın ölkənin ərzaq təminatına mənfi təsirinin qarşısının alınması, ərzaq təhlükəsizliyinin təmini, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi kimi məsələlərə xüsusi önəm verilməsi nəzərdə tutulub.

Hesabatda qarşıda duran vəzifələr sırasında işğaldan azad olunan şəhər və kəndlərimizin yenidən qurulmasının sürətlə davam etdirilməsi, xüsusilə "Şuşa ili" çərçivəsində Azərbaycanın incisi olan bu şəhərin dünya miqyasında tanıdılması ilə əlaqədar layihələrin gerçəkləşdirilməsi də nəzərdə tutulub.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*